# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**“Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin Siyahısı”nın təsdiq edilməsi haqqında**

“Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 30 yanvar tarixli 912 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə:

1. “Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin Siyahısı” təsdiq edilsin (əlavə olunur).
2. Aidiyyəti dövlət orqanları (qurumları) bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Siyahı üzrə görülmüş işlər barədə hər rübdən sonrakı ayın 5-dən gec olmayaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat təqdim etsinlər.
3. Bu Sərəncamın icrasına nəzarət Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatına həvalə edilsin.
4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Cabbar Musayev**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, “ 4 ” “ mart ” 2026-cı il

№ 23s